**Nəcməddin Mürvətov**

# *Şəhid anası*

***Dərddir ağır, ağır kədər,***
***Ağrılarda yox ki qədər,***
***Təsəllilər tamam hədər,***
***Ürəyində saxla yası,***
***Məğrur dur, şəhid anası.***

***Böyümüsən igid, ərən,***
***Deyildi asan can verən,***
***Boğuldu qanında düşmən,***
***Aldı da özü qisası,***
***Məğrur dur, şəhid anası.***

***Düşəndə dara, çətinə,***
***Bənzəmədi hər yetənə.***
***Canını qurban Vətənə,***
***Etdi köksündən yarası,***
***Məğrur dur, şəhid anası.***

***Əvvəlkitək quc, yola sal,***
***Ağı demə çal, layla çal,***
***De ki, südüm sənə halal,***
***Yox ki, başqa təmənnası,***
***Məğrur dur, şəhid anası.***

***Bu sitəmə gərki sinə,***
***Əhsən deyə oğlun sənə.***
***Şəhidliyin şərəfinə,***
***Bax, ayaqda el-obası,***
***Məğrur dur, şəhid anası.***

ədalət.- 2020.- 11 avqust.- S.6